


“Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## AYDIN ARAZ



1982-ci ildə Araz qırağında - Culfa (İran) şəhərində anadan olub. İlk və orta məktəbləri doğma şəhərində bitirib. Təbriz Universitetinin sosioloiya fakültəsində yüksək lisans səviyyəsini qazanıb. Tələbəlik dövründə Təbriz Universitetində bütün dillərdə şeir oxunmasına izin verilən "Payız" ədəbi dərnəyinin təməlini qoyub. Ara-sıra "Barama" və "Bayquş" saytlarında şeirləri yayımlanıb.

İlk şeir kitabı "Yasaq sözcüyüm" adıyla 2007-ci ildə işıq üzü görüb. Qısa zaman ərzində satılan kitab ikinci dəfə çap olunub. İkinci kitabı 2013-cü ildə "Adamlar gedir, yoxsa qayıdır" adıyla çap edilib.

### Vivaldinin "dörd fəsil" əsərinə

"01 bahar"
Tumurcuqlar çırtlayır
Baxışırıq
Sanki illərdir tanışıq
Hava dolur boşalır bizim sağlığımız
Ürəklərimiz oyanır

"02 yay"
Çiçəklər qürurla meyvələşirlər
Hava qızışır ürəklərimiz tək
Günəş dərilməli bir alma
Sevişirik
Ürəklərimiz alışır
Daşırıq biri-birimizdən
Döşəyirik ulduz çörəyi hər gecə
Vaxtımız yox - təqvim səhifələrində
not yazmaq üçün
Sevirik yalnız.

"03 payız"
Çalırlar almamızı budaqlarımızdan
Hava tutulur "yad buludlarla"
Hava qurtulur
Ürəklərimiz sıxılır
Yapışmırıq biri-birimizə
Ayrılırıq
Sanki illərdir özgəyik.

"04 qış"
qışa heç nə qalmayıb
boşdur.

## MƏRYƏM QURBANZADƏ



1982-ci ildə Maku şəhərində anadan olub. Çox gənc yaşlarından qələmə sarılıb, könlünün dediklərini ağ vərəqlərə köçürməyə başlayıb. Ali təhsillidir.

*Şeirlə qucaqlaşan insanlıq!*
*Kulyaj olmuş*
*Bir insanlıq var yaşayışda.*
*Yarısı savaşa gedir,*
*yarısı savaşdan qayıdır,*
*yarısı həsrət qoxur,*
*yarısı qorxudan həsrətə çevrilir,*
*yarısı cibində gəzdirən qurşunlara qoşulur,*
*yarısı qoşulu qurşun çiynində*
*əksijinə bağlanır,*
*yarısı alın yazısında dalğalanır,*
*yarısı dalğalı bır dənizdə birini gözlə yeyir,*
*yarısı sonu gəlmiş bir qu quşu kimi*
*uzaqlarda yox olur,*
*yarısı sonu görünməyən mən kimi*
*şeirlə qucaqlaşır.*

Esmira Fuad